Ürəyi eldə olan sənətkar

Atası əhd etmişdi ki, oğlum olsun, qurban kəsəcəyəm. Mirvarid qəlib dünyaya və... kişi onu oğlu bilib, yenə də kəsib dediyi qurbanı...

Mirvarid (Mirvarid Dilbazi) oğul kimi doğulsaydı, bəlkə də bir atanın oğlu olaraq qala bilərdi. Lakin bir qız kimi doğulsa da, bütövlükdə bir millətin oğlu oldu.

Adına layiq qız (oğul) olduğu zaman-zaman təsdiqlandı.Qələm dostları tərəfindən də,görkəmli şəxsiyyətlər tərəfindən də! S.Rüstəm ona aid bir dostluq şərjinin altından bu misraları yazdı:

Qazaxlı qızıyam, adım Mirvarid,
Şeirə mirvariyə olmuşam varid!

M.Hüseyin və S.Vurğun onu "eloğlu" - deyə çağırırdılar.

M.S.Ordubadi gənc şairənin ilk yaradıcılıq nümunələrilə tanış olduqdan sonra onu "Balaca Məhsəti" adlandırmışdı.

Qadın yazarlar arasında Azərbaycanın ilk xalq şairi adına layiq görülən Mirvarid Dilbazi müstəqil Azərbaycan Respublikasının "İstiqlal" ordenilə də qadınlar arasında ilk olaraq təltif olundu. Bu 1998-ci ildə oldu.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü və qayğısıyla onun təntənəli şəkildə 85 illik yubileyi keçirildi. Həmin yubileydə ulu öndər "Azərbaycan qadınının, anasının ən parlaq, ən gözəl nümunəsi" adlandırdığı bu görkəmli sənətkarın ağ saçlarından öpərək dedi: "Siz bütün əsərlərinizlə vətənimizə, xalqımıza sədaqətlə xidmət edərək xalqımızın milli azadlığı yolunda öz payınızı vermisiniz.

Siz Azərbaycanın istiqlaliyyəti yolunda fədakar bir əsgərsiniz. Ona görə də siz müstəqil Azərbaycanın ən böyük mükafatı olan "İstiqlal" ordeninə layiq görülmüsünüz.

Azərbaycan xalqı sizinlə fəxr edir, çünki siz XX əsrin tarixi şəxsiyyətisiniz, Azərbaycan ədəbiyyatının, şeirinin klassikisiniz."

Mirvarid Dilbazinin əsərlərindəki bir lirik qəhrəmanın (ananın) bircə qüssəsi var. O,düşünür ki,bir ana oğul həsrətilə qovrula bilər, üzülə bilər, ancaq təki bircə Vətən oğlusuz olmasın.

Xalq şairinin qəhrəmanı da (elə Mirvarid Dilbazinin özü də) elə bir oğulu tapdı, sevdi və dedi;

Cavidi vətənə getirən oğul,
Onu öz xalqına yetirən oğul,
Xalqının misilsiz qayğılarını,
Öz çiyni üstünə götürən oğul,
Var olsun bu oğul qeyrətin sənin.

Əhsən kamalına, əqlinə əhsən!
Bir xalqın oğlusan, demirəm təksən,
Sən xalqa endikcə yüksələcəksən,
Adi xidmət deyil xidmətin sənin.

Mirvarid Dilbazinin xatırlamasına görə o, ilk şerini anasına həsr edibmiş.

28 yaşından dul qalmış bu qadının obrazı Mirvarid xanımım bütün yaradıcılığından qırmızı bir xətt kimi keçir. Bu qadın adlı-sanlı bir ocaqdan olub. Qazağın İncə dərəsində Aslanbəyli kəndində "Göy Türbə" deyilən müqəddəs bir ziyarətgah var. "Hacı Mahmud Əfəndi Türbəsi" də deyirlər ona. Həmin türbə Seyid Mirhəmzə Nigarinin muridi olmuş Hacı Mahmud Əfəndiyə məxsusdur.

Mirvarid xanım həmin müqəddəs kişinin qızı nəticəsidir. O kişinin nəvəsi olan anası Cəvahir xanıma yazdığı şeri özü sonralar zəif hesab etsə də, əslində bu şeir bir folklor nümunəsi təsiri bağışlayır. Şerin bir bəndi belədir:

Bostanlarda qızıl yemiş,
Bağlarda uçan qızıl quş.
Xəzinədə qızıl-gümüş
Bircə anam, bircə anam!

Mirvarid xanımın xatırlamalarında belə bir məqam da öz əksini tapıb. "Mən Mədinə xanım Qiyasbəylinin rəhbərlik etdiyi Bakı Dərülmüəllimatı deyilən seminariyada oxuyurdum. Bir gün seminariyada dövlət imtahanında Türkiyədən Fuad Köprülüzadə də gəlmişdi. Mən Tofiq Fikrətin bir şerini oxudum. Özünü saxlaya bilməyib alnımdan öpdü, soruşdu: "Yavrum, bundan sonra nə yapacaqsən? Dedim ki, mütləq İstanbul Universitetində oxuyacam".

Mirvarid Dilbazi arzuladığı unversitetdə oxuya bilməsə də, həyat universitetində oxudu. Özünün də, bacısı Yaqut Dilbazinin də, əsəninəslinin də başına olmazın oyunlar açıldı. Atasının qətlə yetirilməsi azmış kimi, onun babası Mustafa kişi ailəsiylə Orta Asiyaya - Qazaxistan-gölünə qərq edildi. Dayısı gənc yaşlarında Aral dənizə keçə bildilər . Lakin onlardan biri Aral faciəsini eşidəndə hirsindən özünə qəsd etdi.

Bütün bu möhnətlərə baxmayaraq yaxşı ki, Tanrının nəfəsi Mirvaridin də üstündə idi. Tanrı tərəfindən ona iki tac bəxş edilmişdi: Şairlik və analıq tacı. Hər iki tacı o, ömrünün axırına kimi şərəflə və ləyaqətlə daşıdı.

Əslində M.Dilbazi öz şeirlərini kağız üstə yazmırdı. Qazaxıstan və Orta Asiya çöllərində sürgündə ölən (öldürülən) babasının, Aral gölünə batırılan gənc dayısının, Türkiyədə mühacir həyatı yaşamağa məcbur olunan, Aral faciəsini eşidəndən sonra intihar edən digər dayısının unudulmaz xatirələrilə baş-başa yazırdı.

Mirvarid Dilbazi 1912-ci il avqustun 19-da Qazağın Xanlıqlar kəndinə məxsus Ağqaya yaylağında anadan olub. İlk mətbu şeri "Qadınlar hürriyyəti" (1927), ilk şeirlər kitabı "Bizim səsimiz" adlanıb (1934).

Tərcüməçilik də edib (Knut Hamsun-"Viktoriya" romanı, L.Tolstoy "Üç ayı", A.Çexov "Vanka və s.").

S.Vurğun SSRİ yazıçılarının 2-ci qurultayında M.Dilbaziyə O.Berqolts, Zülfiyyə kimi şairlərlə birgə yüksək qiymət vermişdi.

M.Dilbazi "Məhsəti", "Əlcəzairli qız", "Partizan Aliyə", "Aveydağla söhbət" kimi çox maraqlı, tarixi, müasir poemalar da yazmışdır.

Sözlərinə yazılmış "Çoban Qara", "Evimizə gəlin gəlir", "Ənam yadıma düşdü" və s. mahnılar bu gün də dillər əzbərdir.

1949-cu ildə Sovet Sülhü Müdafiə Komitəsinin üzvü olub.

1979-cu ildə xalq şairi fəxri adına layiq görülüb. Bu haqda fərmanı da Heydər Əliyev imzalamışdı.

O, bu ada layiq idi. "Onun poeziyası bu günün tərcümeyi-halının bir hissəsi kimi gələcək nəslə öz sözünü deyəcəkdir" *(M.Araz)*.

Kim şairi dərk etmək istəyirsə onun yurduna getməlidir" *(Höte)*.

M.Dilbazini tam dərk etməyimiz üçün belə bir yol qət etməliyik.Hər dəfə onu daha yaxından tanımaq istəyəndə onun özüylə (şeirləriylə) bərabər doğma yurduna - Qazağa, Xanlıqlar kəndinə üz tutmalıdır oxucu.

Onda görmək mümkündür ki,o, necə və hansı ocaqdan çıxıb. Onda daha yaxşı bilmək olar ki, o, niyə belə yazıb (yaza bilib):

Öz içində yanan bir ocağam mən,
Yandıqca yenə də yanacağam mən!

Onun əcdadları təkcə ulu babaları,nəvələri məşhur Dilbazovlar nəslinə bağlı insanlar,ruhlar deyil.

Onun əcdadları həm də bənövşələrdir.

Avey dağıdır, Dəmcili bulağıdır, Qızıl qayadır, Çoban Vəli ocağı-piridir, Velixan meşəsidir, Didvan qala qüllələridir, Karqayadır. 5 min il yaşı olan keçmiş SSRİ üzrə dünyada ikinci maddi mədəniyyət beşiyi olan Baba Dərviş abidə kompleksidir - babaların qədim yaşayış yeri... hazırkı qəbiristanlıq qalıqları, qədim karvan yolları, yaylaq yerləridir.

Əcdad ruhu, əcdad ocağı onun piriydi,Məkkəsiydi, Kəbəsiydi.Əcdadlara arxalandığı üçün ululaşdı, ocaqlaşdı, vətənləşdi, bənövşələşdi...

...Əcdadlaşdı!

...Almaniyanın Freyburq şəhərində mühacir həyatı yaşayan qazaxlı Hacı Həsənzadə adlı bir hakim olub."Alazan Baycan" təxəllüsüylə şeirlər yazıb, kitablar çap etdirib.İlk dəfə bu müəllif haqda Abbas Zamanov "Ədəbiyyat və incəsənət" qəzetində geniş məqalə yazmış, şeirlərindən nümunələr vermişdir.

Bütün varlığıyla Qazağa, Azərbaycana bağlı olan bu insan öləndə deyirlər, üç söz deyib sonra gözlərini yumub. "Azərbaycan... Qazax... Səməd..."

Bu mühacir şairin bizim keçmiş köç yerləri haqqında, yurd yerləriylə bağlı elə gözəl şeirləri var ki! Bu şeirlərdən biri də Mirvarid Dilbaziyə ünvanlanıb. Doğulduğu yurdun-yuvanın simvolu olaraq:

Əlvan çiçəklidir dağların yazı,
Ondan ayrı inlər könlümün sazı,
Həsrətəm dağlara, ə dağlar qızı,
Qoy çıxım dağlara, qaylarma məni!

Dünyanın ən gözəl bir yerindəyim,
Bağlıdır yurduma yenə ürəyim,
Sorsalar doğrumu, bunu söyləyim,
Yanıram,gəl su tök, yandırma məni!

Mirvarid Dilbazinin bütün şeirlərində bir ocaq işığı var, ocaq istisi, hənirtisi var, yaylaq havası var, bənövşələr üstə göz yaşları var.

M.Dilbazi istəyirdi ki, onun isindiyi və dediyi ocaq təkcə özünü isitməsin, hamının ocağı olsun, bütün insanları, bəşəriyyəti isitsin.

Belə də oldu!

M.Dilbazini düşüncədə o ocaqla yanaşı bir çıraq da gəlir yadıma. O, "Çıraq" adlı bir şeir də yazmışdı.

Başına dönüb-dolanırdı pərvanə kimi və deyirdi :

Bircə anlıq bu ömrümü
Sən əbədi işıqlandır.
Həyatımda İlham adlı
Bir sönməyən çıraq yandır!

O çıraq da Mirvarid xanımın istədiyi kimi yandı! Ona görə də,günlərin birində ömür çırağı sönsə də, könül çırağı sönmədi.

M.Dilbazi etrafında kim varsa (şair olsun, aşıq olsun, çoban olsun, alim olsun, lap elə sevən bir insan-aşıq olsun), məsləkdaş olmasını istəyirdi:

İstərəm sadəcə bir qadın kimi
Sevib etməyəsən sən mənə hörmət.
İstərəm bir dosta, bir məsləkdaşa
Bəslənən eşq olsun bu saf məhəbbət.

M.Dilbazinin şeirlərində bir əminlik hissi var, özgürlük eşqi var. Bu hisslərin hamısı bircə şeydən qidalanır: safiqdan, ocaq hənirtisindən, ocaqlıqdan (ocaqlaşmadan)

Mirvarid Dilbazi ocağı sözü qoruyurmuş kimi qoruyurdu.

Mirvarid Dilbazi sözü ocağı qoruyurmuş kimi qoruyurdu!

O, əmin idi ki, elə bir yol tutub ki,heç vaxt olməyəcək. Həmin əminliklə də "Avtoportret" şerini yazmışdır və demişdir ki:

Bu gün özümlə danışanların nəsli
Sabah şəklimlə danışacaq!

Bütün bunlarla yanaşı anamızın taledən bir umacağı da vardı. Deyib ki:

Sağdan: (oturanlar) S.Vurğun, A.Şaiq, M.Dilbazi; (duranlar) M.Hüseyn, S.Rüstəm. 1945

Kaş bu cansız surətimə də
Can verəsən,
Nəğmələrim elə canlı ola,
Getirə şəklimi cana:
Danışa insanlarla yenə
Bu şairə, bu ana!
Bu arzusu da yerinə yetdi.

Budur, o, artıq 100 yaşına çatıb.

Yenə də yaşayır, oxunur...

Mirvarid Dilbazinin poeziyası işıqla (çıraqla), nurla (ocaqla) dolu poeziyadır.

O, aləmin, qaranlığın yalnız günəşlə, ocaqla,çıraqla işıqlanmasına (işıqlandırılmasına) da tam tərəfdar deyil. O, tələb edir ki:

Qoy sənətin ürəyində ehtiraslı odu yansın,
Düşün,yarat,düşüncənlə qaranlıqlar
işıqlansın!
Bax,bele düşünce ocağı,sənət çırağı
istəyir Mirvarid Dilbazi!
Bax,beləca özü de düşünce işığıyla
qərinələri işıqlandırmağa qabildir!

Uşaqlıq xatirələriylə dolu "Zirvələrdə" adlı bir şeri oxuyur və deyirəm: mənim şair anam, sən burdan (doğma yerlərdən) getməyibsənmiş. Bəlkə də Qızıl qayanın, Didvanın, Aveyin qoynundasanmış. Bir kolun dibindəsənmiş - bir bənövşə donundasanmış.100 illiyini keçirməyə, təbrik etməyə özün gəlmisən.

Özün istəmişdin gizlənib bu yerlərdə qalmağı:

Qorxuram sehirli bu Qızılqaya,
Buradan getməyə məni qoymaya.
Dönderib al-əlvan çiçəklərinə,
Səpə bu dağların ətəklərinə.
Qədim kahalarda gizlədə məni,
Burda əsrlərlə gözlədə məni.

Əfsanəyə dönüb,bu yerlərdə yaranmış əfsanəyə qarışmışanmış, mənim şair anam!

"Daşlara süzülən göz yaşlarımdan yarana bir yeni Damcılı bulaq" söyləmişdin.

Damcılı bulağın suyu niyə artıbmış son vaxtlar, mən də deyirəm, görəsən, belə.

Deyirlər Səməd Vurğun bənövşəni iylənəndə diz çöküb iylənirmiş. "Eloğlusu" Mirvarid Dilbazi də ondan geri qalmırmış."Söykədim üzümü bitdiyin yerə" deməklə kifayətlənmirmiş... üzünü doğrudan da əyilib söykəyirmiş bənövşənin üzünə.

Elə buradaca xatırlatmaq istəyirəm ki, Mirvarid Dilbazinin bənövşələrə dost olduğunu (bəlkə özünün də bənövşə olduğunu) mən çoxdan bilirdim. "Bənövşə" şerini oxumazdan qabaq, "Bənövşələr üstə göz yaşları" kitabından.

Bir də Qazaxda Müəllimlər İnstitutunda 90 illiyini keçirməyə hazırlaşdığımız günlərdə gördüyüm yuxudan...

Əvvəl onu deyim ki,o, bənövşələr üstə iki dəfə göz yaşları tökü b.

Bir dəfə atasının qətlə yetirilməsi xəbərini alanda... Bir dəfə də Ağdamın işğal olunduğunu eşidəndə... çox sevdiyi Ağdamın Abdal Gülablı kəndindən ona göndərilmiş bənövşələrin kitab vərəqləri arasında soluğunu görəndə.

Bütövlükdə götürüldükdə şairənin bütün həyat və yaradıcılığı bənövşələr üstə tökülmüş göz yaşlarıdır.

Dediyim yuxu isə belədir:

O, yuxumda mənə bənövşə qomu uzadıb.

Müəllimlər İnstitutuna görüşə getməzdən bir gün əvvəl dedim ki, nə olaydı, bir qom bənövşə olaydı, sabahkı yubileyə aparaydım.

Qarlı qış gecəsində yuxuma girdi, dedi;

"Eşitmişəm bənövşə gəzirsən. Al, bu bənövşə qomunu, sabah apar görüşə."

Səhəri gün soyuq bir salonda bu yuxumu tələbələrə danışanda onda gördüm ki, hamının canına isti keçdi... Hamının əlində sanki bir qom bənövşə vardı.

Mirvarid Dilbazi ürəyi eldə olan sənətkardır, ürəyi elin ürəyidir. O, çox doğru-dürüst qənaətə gəlib ki:

Unutmaz Vətən məni,
El deyib ötən məni!

O, öz gücünü hardan aldığını öz şeirlərində dönə-dönə vurğulayıb. Xüsusən də bayatılarında:

Bu çay o dağdan gəlir,
Suyu uzaqdan gəlir.
Mənim arzu çaylarım
Ana torpaqdan gəlir.

M.Dilbazinin "Vətən haqqında bayatıları"yla yanaşı, çox gözəl məhəbbətə,sədaqətə həsr etdiyi bayatıları da var. Və bu bayatılarda bir daha sənətkar qəlbi dediyi ocağı axtarır, istədiyi düşüncə işığının odunu gəzir.

Neylərəm buz ürəyi,
Od istər qız ürəyi.
Mənə bir ürək verin,
İsitsin yüz ürəyi.

Bu sədəcə bir deyim deyil,sənətkar məramı, sənətkar idealıdır! Tapındığı qüdrətdi, gücdü.

...Harda ocaq varsa - Mirvarid Dilbazi ordadı.

...Harda bənövşə varsa - orda da!

...Harda ömür varsa - Mirvarid Dilbazi ordadı.

...Harda könül varsa - orda da!

...Harda balaca (bapbalaca) bir su tərəsi varsa - M.Dilbazi də ordadı.

Çay qırağında tərə,
Yarpağın sərib yerə.
Sel gəlir, O, tərpənmir.
Uyubdu nəğmələrə...

Asif atanın bir yaxşı sözü var:

"İnsanlaşdırmayan söz gərəksizdir"

Bu mənada M.Dilbazi sözü insanı insanlaşdıran sözdür. İnsanı ocaq edən yurd edən, el-oba, vətən edən sözdür!

Bir dəfə Bakıda olduğum zaman Nüsrət Kəsəmənli mənə onun bir ismancını çatdırdı: "Mirvarid xanım dedi ki, Baratı görsən, bir dənən, bizə gəlsin."

Getdim.

Evdə tək idi. Qapını üzümə açanda elə bildim öz anamı gördüm. Sadə geyimdə üzü nurlu, ali çəlikli, başı tirmə şəlli... bir insan durmuşdu qarşımda. Evinin divarlarından əzizlərinin - əcdadlarının şəkilləri asılmışdı.

Özü isə həm yaşına görə, həm də illər boyu çəkdiyi ağrıya-acıya görə elə balacalaşmışdı ki (elə mirvanlaşmişdi ki,). Heç əslində həmin böyüdülmüş şəkillərdən az qala seçilmirdi. Bircə fərq vardı ki, o şəkillər divarda donub qalmışdılar. Bu "şəkilsə"... hələ ki, yeriyirdi. Gah çəliyə dirənə-dirənə, gah tələsə-tələsə, gah yubanayubana....

Yolda gələ-gələ ona yazdığım şeri oxudum, kövrəldi.

Xeyli söhbətdən sonra məni çağırmağının səbəbini açıqladı. Dedi ki, babam Ə.A.Dilbazoğlu haqda yazdığın məqaləyə görə çox sağ ol! Çox xoşuma gəldi. Məqalənin sonunda çox "irəli" getmisən. Eşit, oğlum,yadında saxla. Bil ki,vətənpərvər oğullarımızı tez götürürlər aradan. Ehtiyatlı ol, yaxşımı?!

"Yaxşı!" desəm də, hiss etdi ki, gözlərini Qazağın Gəncə xanlığına birləşdirilməsi üstündə itirmiş bir şairin (əcdadın) mən da sözsüz ki, dili boz övladlarından biriyəm, etika xatirinə "yaxşı" demişdim, deyəsən?!

Ayrılanda bacioğlunun əlindəki fotoaparata baxıb, "bir şəklimizi çək" - dedim.

Bu gözəl şairlə, müdrik anayla, bu bənövşəylə, bu dünyayla yanaşı duranda dedi:

-Dayan, oğlum! Şəklimizi belə çəkmə! Mən Baratın əlnndən öpəndə çəkərsən şəklimizi.

Və belədə tarixi bir şəkil gəldi dünyaya. O, bu jestiylə bizə əcdadlarımızın qədim bir adətini bir daha xatırlatmaq istəmişdi.

Axı əcdadlarımız - ata-babalarımız,ulu ananələrimiz adəmi öpəndə yaxşı əməlinə görə öpərdilər. Özü də alnından!

O, belədə də etmişdi.

Hərdən hiss edirəm ki,o öpüşün yeri hələ də alnımdadır!

...Nə vaxt,necə ayrıldığımız yadıma gəlmir.

Hələ də elə bil onun evindəyəm!
...Hələ də bilmirəm ki,hardayam.
Yox-yox, bilirəm,yaxşı bilirəm.
...alnımdakı öpüş yerindəyəm!

Mirvarid Dilbazi "San bülbülüm" adlandırdığı xalq şairi Nigar Rəfibəyli ilə həyat yolunda rəfiqə olmuşdular, sənət yolunda birgə addımlamışdılar.

Xalq yazıçısı Anar M.Dilbazinin Respublika sarayında keçirilən 85 illik yubileyində dedi ki, Mirvarid Dilbazi tez-tez bizə gələrdi. Mən ona uşaq vaxtlarımda "Mirvari xalə" deyərdim. Bir dəfə kitabda Mirvarid adını görəndə evdə gəlib dedim ki, xalamın adını niyə səhv yazıblar?

Valideynlərim başa saldı ki, kitabda düz yazılıb, biz özümüz onu elə çağırınq.

...Şir bürcü altında doğulmuşdu. Şir ürəkli şairdi, anaydı, ictimai xadimdi Mirvarid Dilbazi! Səsi qulağımdadır (qulaqlardadır).

Doğma anamın səsi kimi.
Azərbaycan xalqının səsi kimi.

...Onun xoşbəxt anları xalqıyla söhbət etdiyi anlar idi.

Deyirdi ki, hər təzə şerimi oxuyanda elə bilirəm ki, bütün Azərbaycan məni eşidir. Bu indinin özündə də belədir.

Məni fikirli görsən, demə dərdi-qəmim var,
Mən vəcd aləmindəyəm, elimdə qələmim var.
Məni fikirli görsən, demə ki, möhnətdəyəm,
Sükutuma toxunma, xalqımla söhbətdəyəm.

O,yenə şeir oxuyur. Və bütün Azərbaycan onu eşidir!

Ölüm dedim... Bu söz hardan gəldi ağlıma? Doğrudanmı Mirvarid anamız da öldü? Bu, əfsus ki, belədir.

Yaranan bir gün getməlidir.

Vəsiyyət etdi ki, məni anamın yanında dəfn edin. Vəsiyyətinə əməl olundu. Əmr kimi yerinə yetirildi son sözü və bu son söz onun son əseri oldu. Son şeri oldu.

Yadıma A.Fədəyevin yazdığı məktub düşdü:

"Məni anamın yanında dəfn edin".

İlkinliyə, ululuğa çağırışın bundan kəsə yolunu tanımaram mən!

Belə məqamlarda sözü deyən adam da, eşidənlər də və söz özü də ağlayır.

Və bu könül hıçqırığı bizi bir az da antlayır,-təmizləyir. Allaha, torpağa, vətənə, insana, həyata, ocağa yaxınlaşdırır.

Barat VÜSAL

AYB Qazax bölməsinin sədri,
əməkdar incəsənət xadimi